**Əbəs yerə nəsilləri, tayfaları və şəcərələri ağaca bənzətməyiblər. Eyni kökdən qidalanaraq qol-budaq atan, başı buludlara dayanan bu ağacların gövdəsi nə qədər sağlam, möhkəmdirsə, budaqları da bir o qədər xeyirli, yararlı olacaq. Azərbaycan tarixində qəhrəmanları, ziyalı və görkəmli şəxsiyyətləri ilə dərin iz qoyan şəcərələrdən biri də Şadlinskilər tayfasıdır. Qeyd edək ki, onlar Şəddadilər dövlətinin əsasını qoyan Şadlıların törəmələridirlər. Belə bir məlumat da var ki, Şadlı tayfasının nümayəndələri Göytürk xaqanlığı dövründə həmişə vəzir titulunda olublar. 1808-ci ildə rus canişini Paskeviçin çara yazdığı məktubda qeyd edilir ki, "mən Şadlı tayfasının ağsaqqalı ilə görüşdüm". Rus dilində Şadlinski kimi yazıldığı üçün o vaxtdan da bu formada səslənib.**

# Düşmənə gözdağı verən el qəhrəmanı



Bu tayfa Azərbaycan tarixinə şərəfli səhifə yazaraq xain ermənilərə qarşı mərdliklə mübarizə aparmışdır. Ulu babaları Aslan Sultan, Niftalı Sultandan tutmuş Abbasqulu bəyə qədər bütün Şadlinskilərin mübarizəsini yada salmaq kifayətdir. Qərbi Azərbaycanın o ağır günlərində erməni quldurlarının ən qorxulu yuxusu, çəkindikləri insan Abbasqulu bəy olmuşdur. Qətiyyətli el qəhrəmanı xalq arasında ziyalı, mərhəmətli şəxsiyyət olmaqla bərabər, insanların dayağı idi. Azərbaycan tarixində qəhrəmanlar çoxdur. Kimi qılıncı, kimi top-tüfəngi, kimi də ağlı və zəkası ilə igidlik göstərmişdir. Abbasqulu bəy Şadlinski təbiətcə sərt və ciddi olsa da, bir o qədər də mərhəmətli və tədbirli insan olub. Qərbi Azərbaycanın Vedi mahalında hər kəsə ata, qardaş, arxa-dayaq olduğu üçün xalq onu sevib, güvənib. "Axırıncı aşırım" filmində deyilir: "Qaç Qarabağlara xəbər ver. Kişi gəlib bizi qurtarmağa". Sovet hakimiyyətinin sərt dövründə yazıçı Fərman Kərimzadənin sətiraltı işlətdiyi bu ifadə, əslində, quldur erməni daşnaklarına ünvanlanmışdı.

Azərbaycanın XX əsr qəhrəmanlıq tarixində Abbasqulu bəy Şadlinskinin mühüm yeri var. Bu mənada onun haqqında ən mükəmməl yaradılmış abidələrdən biri də Fərman Kərimzadənin qələmə aldığı "Qarlı aşırım" romanı və əsərin ssenarisi əsasında çəkilmiş "Axırıncı aşırım" filmidir. Qəhrəmanın xarakterini, mərdlik və şücaətini tam dolğun şəkildə əks etdirən ekran əsərində biz onun tarixi şəxsiyyət olmaqla yanaşı, əsl Azərbaycan kişisi obrazının da şahidi oluruq. Abbasqulu bəyin yaşadığı dövr elə bir vaxta təsadüf edirdi ki, həmin zaman daşnak ermənilər Qərbi Azərbaycanda kəndlərimizə silahlı hücum edir, soydaşlarımıza divan tuturdular. Belə bir dönəmdə Şadlinski ilk özünümüdafiə dəstələri yaradaraq düşmənə qarşı vuruşmuş, minlərlə Azərbaycanlı ailəsini daşnakların qırğınlarından xilas etmişdir.

Ətrafında Bilas Şadlinski, Nəsrulla bəy Şadlinski, Xəlil bəy, Mehdi bəy, Mirzə Təhmasib kimi sayseçmə igidləri toplayaraq düşmənə qan uddurmuşdur. Həmin döyüşləri xatırlayan Bilas Şadlinski sonralar xatirələrində belə demişdi: "1918-1920-ci illər Vedi rayonunda vəziyyət ağırlaşdı. Hər həftə Vediyə daşnakların silahlı basqını olurdu. Abbasqulu bəy Şadlinskinin silahlı mübarizə dəstəsinin müşayiəti altında minlərlə azərbaycanlı ailəsi daşnakların qırğınlarından xilas olub, İrana mühacirət etmişdi. Bizim ailəmiz də İranın Ərəblər və Çaypara mahallarında bir müddət qaldıqdan sonra Xoy şəhərinə gedib çıxdı. Az sonra atam vəfat etdi".

Bu o zamanlar idi ki, Qərbi Azərbaycanın Vedi rayonunda vəziyyət gərgin idi. Ermənilərin silahlı hücumu səngimir, xalq onlara qarşı mübarizəyə qalxırdı.

Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 24 fevral 1886-cı ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur. Uşaqkən atasını itirmiş, 1894-cü ildə anasının köməyi ilə ikiillik rus-tatar məktəbində oxusa da, maddi çətinlik üzündən təhsilini tamamlaya bilməmişdir. 1902-ci ildə atasından qalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur. Rusiyada 1905-1907, İranda 1905-1911-ci illər inqilabları onun ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. 1907-ci il fevral inqilabından sonra isə Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir. 1918-ci ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və digər ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının baş alıb getdiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi - gələcək "Qırmızı tabor"u təşkil etmiş, 1921-ci ilə kimi həmin taborun komandiri olmuşdur. Daşnaklara qarşı apardıqları mübarizədə göstərdikləri igidlik və mərdliyə görə Abbasqulu bəy də başda olmaqla dəstənin 19 üzvü "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu.




Abbasqulu bəy Şadlinski 28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan sonra Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək sentyabrın 17-də 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gələrkən buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdi. Şadlinski ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmişdir. Cəllad Dronun daşnak qüvvələrini darmadağın etdikdən sonra Naxçıvanda sovet hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşdur. Göstərdiyi igidlik və şücaətə görə Nəriman Nərimanov tərəfindən "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir.

1921-ci ilin yayında isə döyüşçüləri ilə birlikdə Dərələyəz və Zəngəzurda baş qaldıran erməni quldurlarını məhv etmişdir. İndiki Ermənistan ərazisində xain daşnak dəstələrini darmadağın etdikdən sonra Şadlinski 1922-ci ilin sonuna kimi Naxçıvanda sərhədlərin qorunmasına rəhbərlik etmişdir. 1922-1928-ci illərdə Ermənistanda bir sıra məsul vəzifələrdə çalışmış, yeni yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri təyin olunmuşdur. Abbasqulu bəy Şadlinski Vedi, Şərur-Dərələyəz, Naxçıvan mahallarının sakinlərini kütləvi qırğından xilas etməklə əfsanələşmiş, hələ sağlığında nəğmə və dastanlarda əbədiləşmişdir. Daşnakların soydaşlarımıza qarşı amansız hücumları zamanı Qaraxaçlı aşıq Cəlilin üzünü dağlara tutub onun barəsində oxuduğu nəğmə Vedinin dağlarında əks-səda verib:

*Vedinin dağları batıbdı yasa,*
*Düşmənlər istəyir oranı basa.*
*Bir namə yazmışam o xan Abbasa,*
*Durmayıb, tez gəlsin bizim imdada.*

Abbasqulu bəy Şadlinski ermənilərə qarşı mübarizəsi ilə yanaşı, gənclərin elmə, biliyə yiyələnmələrinə də dəstək verib, Peterburqda təhsil almaları üçün maddi köməyini əsirgəməyib.

Abbasqulu bəy Şadlınski 1930-cu il 26 fevral tarixində vətən uğrunda şəhid olub. Bu el qəhrəmanı, Azərbaycanın bahadır oğlu Vedi rayonunda dəfn edilmişdir.

Gün gələcək, ölkə boyu səpələnən Qərbi Azərbaycan elləri də köç karvanlarına qoşularaq öz doğma yurdlarına, mahallarına geri dönəcəklər. Qəribsəmiş obalarda yanan işıqların, alovlanan ocaqların istisi, ziyası Abbasqulu bəy Şadlinskinin də uzun illər soydaşlarımızdan uzaq qalmış soyuq məzarını isidəcək.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**